**Azərbaycan Respublikası**
**Mədəniyyət Nazirliyi Kollegiyasının**
**__________ 2018-ci il tarixli ____nömrəli**
**Qərarı ilə təsdiq edilmişdir.**

# Şəhər (rayon) Mədəniyyət Mərkəzlərinin

# Nümunəvi Əsasnaməsi

## I. Ümumi müddəalar

1.1. Şəhər (Rayon) Mədəniyyət Mərkəzləri (bundan sonra – Mərkəz) Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin (bundan sonra – Nazirlik) tabeliyində olan və öz fəaliyyəti ilə bağlı digər mədəniyyət müəssisələrinə, incəsənət kollektivlərinə, yaradıcılıqla məşğul olan təşkilatlara, idarə və şəxslərə, ictimai təşkilatlara, habelə geniş əhali kütləsinə, xüsusilə gənclərin, yeniyetmə və uşaqların asudə vaxtdan səmərəli istifadəsinə və maraqlı keçirilməsinə; xalq yaradıcılığının məhsulu olan Azərbaycan qeyri-maddi mədəni irsinin qorunması və dəstəklənməsinə xidmət göstərən və eyni şəbəkəyə aid olan klub müəssisələrini vahid strukturda özündə birləşdirən dövlət mədəniyyət sisteminə və dövlətin mülkiyyətinə daxil olan mədəniyyət təsisatıdır. Mərkəzin fəaliyyətinə nəzarət Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsi (bundan sonra – Şöbə) və Bakı şəhər Mədəniyyət Baş İdarəsi və regional mədəniyyət idarəsi (bundan sonra – İdarə) həyata keçirir. Mərkəz öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Mədəniyyət haqqında" Azərbaycan Respublikasının Qanununu, digər qanunları, Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyasını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Nazirliyin və İdarənin əmr, sərəncam və qərarlarını, digər normativ hüquqi aktları, habelə bu Əsasnaməni rəhbər tutur.

1.2. Mərkəzin tərkibinə aşağıdakı struktur bölmələr (Mərkəzin filialları) daxildir:

1.2.1. mədəniyyət, yaradıcılıq (diyarşünaslıq), folklor, sənətkarlıq evləri;

1.2.2. yaradıcılıq (diyarşünaslıq), folklor, sənətkarlıq klubları;

1.2.3. digər profilli klub müəssisələri.

1.3. Mərkəz öz vəzifə və hüquqlarını həyata keçirərkən digər mədəniyyət obyektləri, yaradıcılıq ittifaqları, elmi-tədqiqat, təhsil, mədəniyyətmüəssisələri, başqa idarələrin tabeliyində olan mədəniyyət evləri və klubları, kitabxanalar, məktəblər, əhali arasında tərbiyəvi iş aparan digər idarələr, ictimai təşkilatlar və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqə zəminində fəaliyyət göstərir.

1.4. Mərkəz dövlət büdcəsindən maliyyələşən təşkilatdır. Onun sərəncamında qanunvericiliyə uyğun olaraq dövlət əmlakı, üzərində Nazirliyin, İdarənin və öz adı həkk olunmuş blankı, möhürü və ştampları vardır.

1.5. Mərkəz öz işini mövcud qaydada təsdiq edilmiş perspektiv və illik planlar əsasında qurur, öz fəaliyyəti ilə bağlı İdarəyə hesabat verir.

1.6. Mərkəzin ümumi fəaliyyəti Nazirliyin Xalq yaradıcılığı və mədəni marşrutların inkişafı şöbəsi və İdarə tərəfindən, maliyyə-təsərrüfat fəaliyyəti isə digər aidiyyəti orqanlar tərəfindən yoxlanıla bilər.

1.7. Mərkəzin fəaliyyətinin predmeti xalq yaradıcılığının dəstəklənməsi, Azərbaycan qeyri-maddi mədəni irsinin qorunması, bərpası və inkişaf etdirilməsi, əhalinin asudə vaxtının səmərəli təşkilidir.

1.8. Mərkəzin fəaliyyətinin əsas məzmunu əhatə etdiyi ərazidə xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin hüquqi, inzibatçılıq, maliyyələşdirmə, metodiki-məlumat, kadr, maddi-texniki və beynəlxalq əməkdaşlıq kimi mədəni-siyasi təminat mexanizmlərinin təkmilləşdirilməsi və Azərbaycan qeyri-maddi mədəni irsinin diyarşünaslıq, folklor və sənətkarlıq kimi əsas sahələrinin bilavasitə təşkilindən ibarətdir.

## II. Mərkəzin fəaliyyətinin məqsəd və vəzifələri:

2.1. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin hüquqi təminatının inkişaf etdirilməsi, o cümlədən beynəlxalq normativ bazanın inkişaf və tətbiqi; milli qanunvericiliyin kompleks şəkildə inkişaf etdirilməsi; müəllif hüquqlarının qorunmasına dair təkliflərin hazırlanması.

2.2. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin idarə olunmasında müasir üsulların tətbiqi, o cümlədən dövlət idarəetmə sisteminin optimallaşdırılması; fəaliyyət göstərən özəl qurumlar üçün münasib şəraitin yaradılması; iştirak edən qeyri-hökumət təşkilatlarının dəstəklənməsi.

2.3. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin maliyyələşdirmə mənbələrinin diversifikasiyası, o cümlədən dövlət büdcəsindən ayrılan maliyyə vəsaitlərinin istifadəsinin səmərəliliyinin artırılması; büdcədənkənar maliyyə vəsaitlərinin cəlb edilməsi; ödənişli mədəni xidmətlərin təkmilləşdirilməsi.

2.4. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin metodiki-məlumat təminatının təşkil olunması, o cümlədən konsepsiya, proqram, layihə, reyestr, kadastr, metodiki tövsiyə və s. işlənilməsi; yerli, milli və beynəlxalq konfrans, dəyirmi masa, seminar və s. təşkili; yerli, milli və xarici kütləvi informasiya vasitələrində işıqlandırılması.

2.5. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin kadr təminatının təkmilləşdirilməsi, o cümlədən mədəniyyət xadimlərinə maddi-mənəvi dəstəyin göstərilməsi; təlim, ixtisasartırma, treninq, təcrübə kurslarının təşkili; gənc istedadların aşkar edilməsi.

2.6. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin maddi-texniki bazasının müasirləşdirilməsi, o cümlədən infrastruktur vahidlərinin binalarında təmir-bərpa və tikinti işlərinin aparılması; infrastruktur vahidlərinin texniki avadanlıq və informasiya-kommunikasiya texnologiyaları ilə təchizatı; infrastruktur vahidlərinin ifa alətləri, səhnə geyimləri və s. ilə təmin edilməsi.

2.7 Mərkəz yaş kateqoriyası, fiziki və sağlamlıq imkanlarından asılı olmayaraq bütün əhalinin mədəni həyata cəlb edilməsi hüququnun təmin olunması üçün işlər görür.

2.8 Fəaliyyət göstərdiyi bölgənin tarixi, adət-ənənələri, xalq yaradıcılığı nümunələrinin informasiya-təbliğini həyata keçirir

2.9 Bölgənin mədəni potensialının üzə çıxarılması, istedadlı şəxslərin aşkarlanması və dəstəklənməsi məqsədilə tədbirlər görür.

2.10. Xalq yaradıcılığının və Azərbaycan qeyri-maddi mədəni irsinin beynəlxalq aləmdə təmsil olunması, o cümlədən dövlət, hökumət, idarələrarası və qeyri-hökumət beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əməkdaşlığın genişləndirilməsi; dövlət, hökumət və idarələrarası ikitərəfli beynəlxalq əlaqələrin inkişaf etdirilməsi; diaspor mədəniyyət mərkəzləri ilə əməkdaşlığın möhkəmləndirilməsi.

2.11. Azərbaycan xalqının tarixi-mədəni yaşam təcrübəsinin (adət-ənənə, bayram-mərasim, rəmz-bilik) qorunması;

2.12. Azərbaycan xalqının folklor ifaçılığı sənətinin (musiqi-rəqs, şifahi ədəbiyyat, oyun-tamaşa) dəstəklənməsi;

2.13. Azərbaycan xalq mədəni sənayelərinin (tətbiqi, dekorativ və təsviri sənət) dirçəldilməsi;

2.14. xalq yaradıcılığı, diyarşünaslıq, folklor və sənətkarlıq, digər profilli dərnək, kurs, kollektiv, birlik və s. təşkili;

2.15. yerli, respublika və beynəlxalq səviyyəli təntənəli mərasimlərin, konsert/çıxış, tamaşa/oyun, festival/müsabiqə, yarmarka/sərgi, ekskursiya/qastrol, konfrans/seminar/ mühazirə, mədəni tur/info-tur və əhalinin asudə vaxtının mədəni-maarif təşkilinə yönəldilmiş sair tədbirlərin keçirilməsi;

2.16. Xalq yaradıcılığının dəstəklənməsinə və Azərbaycan qeyri-maddi mədəni irsinin qorunmasına dair sənədli film silsilələrinin çəkilməsi, kitab və bukletlərin nəşr edilməsi, informasiya materiallarının, əyani vəsait və suvenirlərin hazırlanması.

2.17. Mərkəz özünün əsas fəaliyyəti ilə yanaşı, Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa fəaliyyəti də həyata keçirə bilər.

## III. Mərkəzin fəaliyyətinin icra mexanizmləri

3.1. Mərkəz fəaliyyətini İdarənin rəhbərliyi altında “monitorinq – plan – fəaliyyət – hesabat” formatında həyata keçirir.

3.2. Mərkəzin fəaliyyəti mövcud vəziyyətin monitorinqi, o cümlədən mədəni-siyasi təminat mexanizmlərinin (qanunvericilik, inzibatçılıq, maliyyələşdirmə, informasiya, insan resursları, maddi-texniki baza, beynəlxalq əməkdaşlıq) ekspertizası; Azərbaycan qeyri-maddi mədəni irsinin diyarşünaslıq, folklor və sənətkarlıq kimi əsas və mədəniyyətin digər sahələrinin bilavasitə təşkil edilməsinin yoxlanılması; infrastruktur vahidlərinin təftişi əsasında qurulur.

3.3. Konkret tədbirlərin həyata keçirilməsi məqsədilə Mərkəz İdarə tərəfindən təsdiq olanan illik iş planlarının, qısamüddətli proqramların və perspektivli layihələrin hazırlanmasını və icrasını təmin edir.

3.4. Fəaliyyətin nəticələrinin təhlil və istifadə edilməsi məqsədilə Mərkəz illik hesabatları İdarəyə, İdarə isə mərkəzlərlə bağlı ümumiləşdirilmiş illik hesabatını Nazirliyə təqdim edir.

## IV. Mərkəzin hüquqları

4.1. Əsasnamədə göstərilmiş məqsəd və vəzifələrə müvafiq olaraq öz fəaliyyətinin məzmununu və konkret formalarını müstəqil müəyyən etmək;

4.2. İdarənin tabeliyində olan müvafiq mədəniyyət müəssisələri üzrə mövcud ştat vahidləri dairəsində şəbəkənin optimallaşdırılması hesabına Mərkəzin strukturu, ştatları, habelə mövcud vəsaitlər həddində əməkdaşların sosial təminatı və əməyinin stimullaşdırılması ilə bağlı təkliflər hazırlamaq;

4.3. Mərkəzin filiallarının yaradılması barədə təkliflər vermək;

4.4. Mərkəzin filiallarının işini yoxlayıb müzakirə etmək, fəaliyyətlərinin nəticələrini qiymətləndirmək və müvafiq qərarlar qəbul etmək, qabaqcıl iş təcrübəsini öyrənmək, ümumiləşdirmək və tətbiq etmək;

4.5. Mərkəzin filiallarının iş planlarını təsdiq etmək, onlardan hesabatlar yığmaq və ümumiləşdirərək İdarəyə təqdim etmək;

4.6. Mərkəzdə və onun filiallarında çalışan işçilərin attestasiyadan keçirilməsini təşkil etmək, onların ixtisaslarının artırılması üçün tədbirlər görmək, əməkdaşların maddi və mənəvi cəhətdən həvəsləndirilməsi və fərqlənməsi üçün təkliflər vermək;

4.7. Mərkəzin və onun filiallarının xidmətlərindən istifadə edilməsi qaydalarını, əsas xidmətlərin siyahısını və onların istifadəçilərə təqdim olunması qaydalarını müəyyən etmək;

4.8. «Mədəniyyət haqqında» Qanuna, habelə bu Əsasnaməyə müvafiq olaraq, Mərkəzin əmlakına istifadəçilər tərəfindən vurulmuş ziyanın maddi məsuliyyətini tələb etmək, məhkəmədə iddia qaldırmaq;

4.9. istifadəçilərə təqdim edilən xidmətlərin siyahısının genişləndirilməsi və Mərkəzin inkişafı məqsədilə təsərrüfat fəaliyyəti ilə məşğul olmaq (Mərkəzin əsas fəaliyyətinə zərər vurmamaq şərti ilə);

4.10. Nazirlik və İdarə ilə razılaşdırılmaqla Mərkəzdə əlavə pullu xidmətlərin tətbiq edilməsi və reallaşdırılması mexanizmini müəyyən etmək;

4.11. Mərkəzin inkişafı və bu Əsasnamədə göstərilmiş fəaliyyət növləri üçün müxtəlif fondlardan, hüquqi və fiziki şəxslərdən qrantlar, ianələr və Azərbaycan qanunvericiliyinə zidd olmayan digər vəsaitlər almaq;

4.12. müəyyən olunmuş qaydada başqa təşkilatlarla birgə razılıq, yaxud müqavilə əsasında əməkdaşlıq etmək;

4.13. Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada Mərkəz yanında qəyyumluq şuraları, könüllülər birlikləri və s. yaratmaq, ictimai və həmkarlar təşkilatlarının, assosiasiyaların, birliklərin üzvü olmaq;

4.14. Azərbaycan Respublikasının qanunvericiliyi ilə büdcə müəssisələrinə verilən bütün güzəştlərdən istifadə etmək;

4.15. Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan başqa fəaliyyətlə məşğul olmaq.

## V. Mərkəzin əmlakı

5.1. Mərkəzin əmlakı müstəqil balansda uçota alınır və bu Əsasnaməyə müvafiq olaraq, Mərkəzin məqsəd və vəzifələrinin yerinə yetirilməsi üçün zəruri olan əsas və dövriyyə vəsaitlərindən ibarətdir. Mərkəzin bütün əmlakı ona operativ idarəetmə hüququ ilə təhkim olunmuşdur.

5.2. Mərkəzin əmlakına aşağıdakılar aiddir:

5.2.1. Mərkəzə və onun filiallarına təhkim olunmuş bütün əmlak;

5.2.2. Mərkəzin mövcud maliyyə vəsaitləri hesabına, o cümlədən bu Əsasnamə üzrə nəzərdə tutulan fəaliyyətindən əldə edilən gəlirlər hesabına alınan əmlak;

5.2.3. hüquqi və fiziki şəxslərdən, eləcə də vəsiyyətnamə üzrə, müqavilə üzrə və ya başqa əsaslarla bağışlama, ianə formasında alınan əmlak.

5.3. Mərkəz ona təhkim olunmuş əmlaka operativ idarəetmə hüquqları ilə sahiblik edir, Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş hədlər daxilində bu əmlakdan istifadə edir və onun barəsində sərəncam verir.

## VI. Mərkəzin maliyyə vəsaitləri və maddi-texniki təchizatı

6.1. Mərkəz dövlət mədəniyyət sisteminin tərkib hissəsi kimi büdcə təşkilatıdır və dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir.

6.2. Mərkəzin maliyyə vəsaitləri aşağıdakı mənbələr hesabına yaranır:

6.2.1. dövlət büdcəsindən ayrılan daxilolmalar;

6.2.2. qanunvericiliyə zidd olmayan qrant, sponsor vəsaiti və s.;

6.2.3. ödənişli mədəni xidmətlər.

6.3. Mərkəzin əsas fəaliyyətinin həyata keçirilməsi üçün ayrılan büdcə vəsaitlərindən onun məqsədinə aid olmayan istifadəsi, o cümlədən büdcə ayırmalarının kredit müəssisələrinin depozit hesablarında yerləşdirilməsi və Mərkəz tərəfindən əlavə gəlir əldə edilməsi üçün qiymətli kağızlar alınması qadağandır.

6.4. Müxtəlif mənbələrdən daxil olan vəsaitlər, o cümlədən Mərkəzin Əsasnaməsində nəzərdə tutulan fəaliyyətindən əldə edilən gəlirlər – əsaslı təmir, bərpa işləri, texniki vasitələr və avadanlıqla, səhnə geyimləri və usta dəzgahları ilə təchizat üçün ayırmalar, eləcə də məqsədli təyinatı olan könüllü ianələr Mərkəzin ümumi gəlirinə daxil edilir.

6.5. Mərkəz tərəfindən əhaliyə göstərilən pullu xidmətlərdən və hər hansı ödənişli fəaliyyət formalarından əldə edilən gəlir müəyyən olunmuş qaydada tam həcmdə Mərkəzin sərəncamında qalır və onun əsas fəaliyyətinin inkişafına, xidmətin təkmilləşdirilməsinə sərf edilir. Mərkəz təsərrüfat fəaliyyəti və pullu xidmət əsasında büdcədənkənar fondlar formalaşdırır.

6.6. Pullu xidmətlər İdarənin razılığı əsasında Mərkəzin direktoru tərəfindən müəyyən edilir və müntəzəm qaydada bu xidmətlərin genişləndirilməsi istiqamətində iş aparılır.

6.7. Qəbul edilmiş normativlərə uyğun olaraq, yuxarı təşkilat Mərkəzi bina, surətköçürtmə və çoxaltma texnikası, kompüter, nəşriyyat və cildləmə avadanlıqları və s. ilə təmin edə bilər.

## VII. Mərkəzin idarə edilməsi

7.1. Mərkəzə Nazirliklə yazılı razılaşdırılmaqla İdarə tərəfindən vəzifəyə təyin və azad edilən direktor rəhbərlik edir. Mərkəzin bədii rəhbəri İdarə tərəfindən təyin və azad edilir.

7.2. Direktorun hüquq və vəzifələri:

7.2.1. Azərbaycan Respublikasının qanunvericiliyi və bu Əsasnamə əsasında fəaliyyət göstərir;

7.2.2. Mərkəzin fəaliyyətinə ümumi (filialları daxil olmaqla) və cari rəhbərliyi həyata keçirir, İdarənin qarşısında hesabat verir;

7.2.3. Mərkəzin mənafelərini dövlət orqanlarında, digər idarə və müəssisələrdə, ictimai təşkilatlarda, hüquqi və fiziki şəxslərlə qarşılıqlı münasibətlərdə təmsil edir;

7.2.4. mövcud qanunvericilik əsasında, öz səlahiyyətləri həddində Mərkəzin adından müqavilələr bağlayır, etibarnamələr verir;

7.2.5. qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi, Mərkəz əməkdaşlarının ixtisaslarının təkmilləşdirilməsi üçün məsuliyyət daşıyır;

7.2.6. nizam-intizam qaydalarına və qanunlara riayət olunmasına, dövlət mülkiyyətinin qorunmasına şərait yaradır, kollektivin sosial inkişafı və istehsalat vəzifələrinin yerinə yetirilməsi üçün Mərkəzin ehtiyatlarından səmərəli istifadə edir;

7.2.7. əməkdaşlar arasında vəzifə bölgüsünü aparır;

7.2.8. Mərkəzin və ayrı-ayrı İdarələrin, Mərkəzin filiallarının plan və hesabatlarını təsdiq edir;

7.2.9. Mərkəzin maddi-texniki bazasının lazımi səviyyədə saxlanılması və inkişaf etdirilməsi, Mərkəzin filiallarının binalarının, avadanlığının və digər əmlakının qorunub-saxlanılmasının təmin edilməsi üçün tədbirlər görür;

7.2.10. Mərkəzin ştat cədvəli və strukturu barədə təkliflər hazırlayır;

7.2.11. vəzifə maaşları və stimullaşdırıcı xarakterli digər ödənişlər barədə təkliflər hazırlayır;

7.2.12. Mərkəz üzrə əmr və göstərişlər verir;

7.2.13. müvafiq normativ sənədlərə əsasən İdarə ilə razılaşdırma yolu ilə mərkəzin filial müdirlərini və digər işçiləri əmək qanunvericiliyinə və mövcud qaydalara əsasən işə qəbul və işdən azad edir, onlarla əmək müqavilələri bağlayır, həvəsləndirmə tədbirləri görür və intizam tənbeh tədbirləri tətbiq edir;

7.2.14. Mərkəzin fəaliyyətinin nəticələrinə görə fərdi məsuliyyət daşıyır.

7.2.15. Mərkəzin strukturuna onun filialları, idarələr, sektorlar, funksional və sahəvi prinsiplər əsasında təşkil edilən digər qurumlar daxil ola bilər. Mərkəzin və onun filiallarının əməkdaşları (texniki işçilər çıxmaq şərti ilə) bir qayda olaraq Mərkəzin funksional fəaliyyətində də (dərnəklərin aparılması, kollektivlərə rəhbərlik, və s.) bilavasitə iştirak etməlidirlər. Mərkəzin və onun filiallarının fəaliyyətinə və əməkdaşlarına dair əsas məlumatlar stendləşdirilir.

7.2.16. Mərkəzin filiallarının profilləri (diyarşünaslıq, folklor, sənətkarlıq və s.) Mərkəzin təqdimatı əsasında və Nazirliklə razılaşdırılmaqla İdarə tərəfindən təsdiq olunur. Mərkəzin filialları öz işlərini bu Əsasnaməyə, Mərkəzin direktoru tərəfindən təsdiq edilmiş iş planlarına uyğun qururlar.

7.2.17. Mərkəz idarəetmə, maliyyə-təsərrüfat sənədlərinə və şəxsi heyət barədə sənədlərə görə məsuliyyət daşıyır, onları müəyyən edilmiş qaydada dövlət tərəfindən saxlanılmaq üçün arxivə təhvil verir.

7.2.18. Mərkəzin strukturu Nazirliklə razılaşdırılmaqla İdarə tərəfindən təsdiq edilir.

## VIII. Digər şərtlər

8.1. Mərkəz qanunvericilikdə nəzərdə tutulmuş qaydada ləğv oluna və yenidən təşkil edilə bilər.

8.2. Mərkəzin filiallarının yaradılması, köçürülməsi, birləşdirilməsi və ləğv edilməsi İdarənin təqdimatı əsasında qanunvericilikdə nəzərdə tutulmuş qaydada Nazirliyin müraciəti əsasında həyata keçirilir.